

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 56 (21.466)

*30 mart 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Misir Ərəb Respublikası Müdafiə Nazirliyi Sərhəd Qoşunlarının komandanı Əhməd İbrahim Məhəmməd İbrahimini qəbul edib.

Əhməd İbrahim Məhəmməd İbrahimi Azərbaycanın Misirə dost ölkə olduğunu vurğulayıb. Misirin ölkələrimiz arasında əməkdaşlığı daha da inkişaf etdirməkdə maraqlı olduğunu bildirib.

Azərbaycanın hərbi-texniki sahədə və təlimlərin keçirilməsində yaxşı təcrübəyə malik olduğunu vurğulayan Əhməd İbrahim Məhəmməd İbrahimi sərhəd xidmətləri arasında təcrübə mübadiləsinin önəmini də qeyd edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Misir arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyev Azərbaycanın ölkələrimiz arasında dostluq əlaqələrinin daha da inkişaf etdirilməsinə böyük önəm verdiyini deyib. Dövlətimizin başçısı iki ölkənin sərhəd xidmətləri arasında uğurlu əməkdaşlığa toxunaraq, ölkələrimizin hərbi, sərhəd xidməti, təhlükəsizlik sahələrində əlaqələrinin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Azərbaycan Prezidenti yüksək səviyyəli qarşılıqlı səfərlərin bu əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyini deyib.

## Aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti barədə müşavirə keçirilmişdir







Martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar səyyari müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə iştirak etmişdir.

Müşavirədə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Vasif Məmmədov çıxış edərək demişdir ki, cəmiyyətin fəaliyyəti dövründə muxtar respublikaya 1717 ədəd texnika və texnoloji avadanlıq gətirilmiş, onlardan 1305-i lizinq yolu ilə sahibkarlara satılmış, 137-si rayon bazalarına icarəyə verilmişdir. Muxtar respublikamızda əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatını ödəmək, eyni zamanda qaramalın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də bir sıra işlər görülmüş, 1927 baş damazlıq cins mal-qara xarici ölkələrdən alınaraq muxtar respublikaya gətirilmiş və lizinq yolu ilə fermerlərə satılmışdır. Hazırda muxtar respublikada aqrar sahədə fəaliyyət göstərən sahibkarların, fermerlərin, kənd əməkçilərinin sifarişləri əsasında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən əkin, səpin, becərmə, məhsul yığımı da daxil olmaqla, ümumilikdə, 22 adda müxtəlif xidmətlər göstərilir. Cəmiyyətin sədri muxtar respublikada aqrolizinq xidmətinin nümunəvi təşkili üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Muxtar respublikada aqrolizinq xidməti fəaliyyətə başladıqdan sonra kənd təsərrüfatının inkişafı sahəsində ciddi dönüş yaranmışdır. Ötən dövrdə yeni kənd təsərrüfatı texnikalarının gətirilərək lizinq yolu ilə torpaq mülkiyyətçilərinə verilməsi daha çox torpaq sahələrinin əkilməsinə və bol məhsul istehsalına səbəb olmuşdur.

Ali Məclisin Sədri demişdir: Bu gün inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində yeni innovasiyaların tətbiqinə və müasir texnikalardan istifadəyə geniş yer verilir. Ona görə də "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yeni innovasiyaların tətbiqinə xüsusi diqqət yetirməli, müasir kənd təsərrüfatı texnikalarının kataloqu yaradılmalı və onlar alınaraq muxtar respublikaya gətirilməli, torpaq mülkiyyətçilərinin yeni texnikalardan istifadəsi ilə bağlı müvafiq maarifləndirmə tədbirləri görülməlidir.

Kənd təsərrüfatının inkişafında vacib məsələlərdən biri də meliorasiya və suvarma tədbirlərinin vaxtlı-vaxtında aparılmasıdır. Ona görə də müasir suvarma metodlarından istifadə, əkin sahələrinə suyun qrafik əsasında verilməsi təmin edilməli, şoranlaşmanın qarşısı alınmalı və su itkisinə yol verilməməlidir. Əkinçilikdə məhsuldar toxum sortlarından və mütərəqqi əkin üsullarından istifadə diqqət mərkəzində saxlanılmalı, muxtar respublikanın iqlim şəraitinə uyğun qədim toxum sortları bərpa olunmalıdır.

Qeyd olunmuşdur ki, kənd təsərrüfatı məhsullarının sığortalanması vacib məsələdir. Artıq ölkəmizdə bu sahə üzrə müvafiq qanunvericilik bazası yaradılmışdır. Muxtar respublikada da əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanması təmin edilməlidir. Bundan başqa, aid təşkilatlar kənd təsərrüfatı yönümlü kreditlərin verilməsinə, kiçik fermer təsərrüfatlarının yaradılmasına köməklik göstərməli, bu məqsədlə layihələr hazırlanmalıdır. Torpaqlardan düzgün istifadə kənd təsərrüfatının inkişafında başlıca şərtdir. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada torpaqlar özəlləşdirilmişdir. Ona görə də torpaqlardan təyinatına uyğun istifadə olunmalı, qanunsuz istifadənin qarşısı alınmalıdır.

"Kənd təsərrüfatı sahəsində nəticə əldə etmək üçün aid təşkilatlar tərəfindən kompleks tədbirlər görülməlidir", – deyən Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına və 2016-cı ilin yaz əkinlərinin uğurla başa çatdırılacağına əminliyini bildirmiş, bu işdə muxtar respublikanın kənd təsərrüfatı işçilərinə uğurlar arzulamışdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, kənd təsərrüfatı naziri Elşad Əliyev, Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə müvafiq sahələr üzrə kənd təsərrüfatının inkişafı istiqamətində görülən tədbirlər barədə məlumat vermişlər.

Sonra Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxmışdır.

Bildirilmişdir ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2016-cı ildə 53 ədəd texnika alınaraq muxtar respublikaya gətirilmişdir. Bu texnikalardan 6-sı Avropa istehsalı olan "New Holland" markalı traktor, 47-si isə 12 adda müxtəlif kənd təsərrüfatı texnikalarıdır. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli Fərmanına uyğun olaraq lizinqə götürüləcək kənd təsərrüfatı texnikasının ilkin dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir. Həmçinin 2015-ci ildə Türkiyə Respublikasından 3 dəst damcı və 2 dəst yağış üsulu ilə suvarma sistemləri alınaraq muxtar respublikaya gətirilmişdir. Bu da muxtar respublikada kartof, soğan, bostan bitkilərinin daha mütərəqqi üsullarla suvarılmasına, su itkisinin qarşısını almağa və yüksək məhsul götürməyə imkan verəcəkdir.

Ehtiyat hissələri və gübrə anbarlarına baxış zamanı bildirilmişdir ki, əkinçiliyin inkişafında başlıca şərtlərdən biri də torpaq mülkiyyətçilərinin gübrə təminatını vaxtlı-vaxtında həyata keçirməkdir. Ona görə də bu məsələ muxtar respublikada daim diqqət mərkəzində saxlanılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2015-ci ildə 6283 ton gübrə alınaraq muxtar respublikaya gətirilmişdir. Ölkə Prezidentinin müvafiq fərmanına uyğun olaraq gətirilmiş gübrələr məhsul istehsalçılarına 70 faiz güzəştlə satılır.

Ali Məclisin Sədri muxtar respublikanın torpaq xüsusiyyətlərinə uyğun gübrələrin və lizinqə verilən kənd təsərrüfatı texnikalarının ehtiyat hissələrinin alınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

***Muxtar respublikamızın bütün bölgələrinin ayrılmaz həyat ritminə çevrilən quruculuq tədbirləri Culfa rayonunun Saltaq kəndini də müasir yaşayış məntəqəsinə çevirib. Yazın ilk günlərinin birində, Novruz bayramının sevincini yaşadığımız günlərdə, mart ayının 28-də Saltaqda 6 obyektin açılışı olub. Quruculuq tədbirləri çərçivəsində bu yaşayış məntəqəsinin kənddaxili yolları yenidən qurulub, asfalt örtük salınıb, su keçidləri qoyulub, beton kanal, qaz, içməli su, rabitə xətləri çəkilib. Əlincə çayında yeni kaptaj tikilib, supaylayıcılar qoyulub, yeni məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, su dəyirmanı istifadəyə verilib. Tәbii ki, bütün bunlar saltaqlıların qurub-yaratmaq əzmini yüksəldib, onlarda böyük sevinc hissləri yaradıb.***

# Bir yaz günündə yaşanan sevinc

## *Culfa rayonunun Saltaq kəndindən reportaj*



Bu sevinci bölüşmək üçün üz tutduq həmin kəndə. Son illər regionun digər bölgələri kimi, Babək rayonunun Çeşməbasar kəndi ərazisindən başlayaraq ən ucqar yaşayış məntəqəsi olan Culfa rayonunun Boyəhməd kəndinə qədər böyük həcmdə kompleks quruculuq tədbirləri həyata keçirilib, yollar yenidən qurulub, yol kənarlarında yaşıllıq zolaqları salınıb. İlin bu fəslində yurdumuzun bu dilbər guşəsi özünün yaz gözəlliyinə qovuşub. Belə gözəlliyin yaratdığı mənzərələr isə qurtarmaq bilmir.

Belə mənzərələrdən aldığımız yüksək təəssüratla Saltağa çatırıq. İlk olaraq müasir iş şəraiti yaradılmış kənd mərkəzinə üz tuturuq. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Başir Ağayev Saltaq kəndinə və onun sakinlərinə göstərilən belə dövlət qayğısı üçün minnətdarlığını bildirir. Onunla kənd mərkəzində fəaliyyət göstərən qurumlar üçün ayrılmış otaqları gəzirik. Muxtar respublikanın nail olduğu sosial-iqtisadi inkişafın bəhrəsi olan quruculuq tədbirlərinin Saltağı müasir Azərbaycan kəndinə çevirdiyini görürük. Burada çalışanlar onlara göstərilən qayğıdan razılıq hissi ilə danışırlar.

Yaxınlıqda həkim ambulatoriyası yerləşir. Bu yeni səhiyyə müəssisəsi ilə də tanış oluruq. Baş həkim Fəxrəddin Qəhrəmanov deyir ki, illər boyu arzusunda olduqlarımız artıq reallığa çevrilib. Bilirsinizmi, ucqar dağ kəndlərinin sakinləri bir vaxtlar kiçik bir iş üçün Naxçıvan şəhərinə, rayon mərkəzlərinə üz tutur, müxtəlif çətinliklərlə rastlaşır, xeyli vaxt itirirdilər. Yolların vəziyyəti, nəqliyyat vasitələrinin azlığı, kəndlərdə müxtəlif xidmət sahələrinin olmaması da bu problemləri yaradan səbəblər idi. Neçə illərdir ki, muxtar respublikada bu istiqamətdə davamlı şəkildə həyata keçirilən tədbirlər həmin çətinlikləri aradan qaldırıb. Bu gün muxtar respublikanın ən ucqar yaşayış məntəqələrində belə, müasir infrastruktur yaradılması hesabına kəndlə şəhər arasındakı fərq aradan qaldırılmaqdadır. Bu qayğıdan Saltaq kəndinə də pay düşüb. Qısa zaman kəsiyində kənddə yeni obyektlər tikilib istifadəyə verilib. Bu obyektlər içərisində həkim ambulatoriyası da var. Ambulatoriyada xəstələrin müayinə və müalicəsi üçün şərait yaradılıb. Bu da bizim məsuliyyətimizi xeyli artırıb.

Kənd sakini Zemfira Əliyeva Saltaqda belə ambulatoriyanın istifadəyə verilməsini dövlətimizin kənd adamlarının sağlamlığına verdiyi dəyər kimi qiymətləndirir.

Məktəblilərin və müəllimlərin sevincini onlarla birlikdə elə kənd tam orta məktəbinin yeni binasında bölüşürük. Məktəbin direktoru Sevinc Mustafayeva deyir ki, burada 212 şagird təhsil alır. Bundan əvvəlki bina yenidən qurularaq istifadəmizə verilmişdi. İnsafən, digər kəndlərin məktəbləri ilə müqayisədə bizim məktəbin binası orta səviyyədə idi. Həmin məktəbdə qazandığımız uğurlar da az olmayıb. Bununla belə, muxtar respublikada təhsilin səviyyəsini daha da yüksəltmək, yeni uğurlar qazanmaq üçün Saltaqda da ən müasir tələblərə cavab verən yeni məktəb binasının inşa olunması məktəblilərimizə ən böyük qayğının ifadəsidir. Elə müəllimlərimizə də. Bu gün məktəb xalqın, dövlətin gələcəyi üçün böyük məsuliyyət daşıyan bir ünvandır. Çünki burada sabahımız etibar olunacaq nəsil yetişdirilir. Ona görə də məktəbə qayğı elə xalqın və dövlətin sabahına qayğıdır.

Direktor onu da diqqətimizə çatdırır ki, məktəbin qarşısında qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmək, daha böyük nəticələrə nail olmaq üçün təhsil ocağında tədris müəllim-valideyn əlaqələri əsasında qurulub: "Nizam-intizam, işə məsuliyyət hissi və yüksək tələbkarlıq prinsipləri qazanılan uğurların təməlində duran amillərdir. İşimizi bundan sonra da bu istiqamətdə quracaq, bizə göstərilən etimadı doğrultmağa çalışacağıq".

Artıq saltaqlılar ərzaq məhsullarına, təsərrüfat mallarına olan tələbatlarını ödəmək, müxtəlif xidmətlərdən istifadə etmək üçün rayon mərkəzinə və ya digər ünvanlara üz tutmayacaqlar. Bunun üçün xidmət mərkəzinin fəaliyyətindən istifadə edəcəklər. Burada bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Mağazalarda yerli istehsal məhsullarının satışına üstünlük verilir.

Kənd sakini Zakir Məmmədov istifadəyə verilən xidmət mərkəzini insan amilinə göstərilən qayğı kimi dəyərləndirir. Deyir ki, bundan əvvəl kənddə ancaq bir mağaza olub. Oradan istədiyimizi, hətta gündəlik tələbat mallarını almaq bir problemə çevrilmişdi. İndi isə mağazaların sayı ikidir, həm də böyükdür. Bundan başqa, xidmət mərkəzində bərbərxana və gözəllik salonu da yaradılıb. Kənd adamlarına qalır ki, tikilənləri, qurulanları qoruyub saxlasınlar, gələcək nəsillərə çatdırsınlar.

Saltaq kəndində tarixi 150 ili ötən su dəyirmanı uzun illər sakinlərin xidmətində olub. Son illərdə bu dəyirman müxtəlif səbəblər üzündən fəaliyyətini dayandırmışdı. Daha dəqiq desək, dəyirmanı işlədən su arxından istifadə etmək mümkün deyildi. Saltaq kəndində həyata keçirilən quruculuq tədbirləri hesabına qədim su dəyirmanına da yeni həyat bəxş olunub. Əlincəçaydan qidalanan 2800 metrlik dəyirman arxı yenidən qurulub. Bu da dəyirmanın fasiləsiz olaraq işləməsinə şərait yaradıb. Dəyirmançı Həsən Qənbərov ömrünün səkkizinci on illiyini yaşayır. O deyir ki, bu dəyirmanı babası Kəblə Əli kişi tikib. Neçə illər buranı özü işlədib. Sonra onun oğlu Hüseyn kişi bu işi davam etdirib. İndi isə müasir tələblər səviyyəsində yenidən qurulmuş dəyirmanı Həsən Qənbərov işlədir. Həsən kişi onu da əlavə edir ki, vaxtı ilə bu dəyirmana Şərur və Ordubad rayonlarından belə, taxıl üyütməyə gəlirlər. Yenidən qurularaq istifadəyə verilən su dəyirmanı Saltaq kəndinin ilə yanaşı, qonşu kəndlərin də tələbatını ödəyəcək.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Başir Ağayev deyir ki, Saltaq kəndinin pay torpaq sahələrinə vaxtı ilə Əlincəçay üzərində salınmış körpüdən keçməklə getmək mümkün olub. Son illərdə bu körpü sıradan çıxmış, kənd adamlarının torpaq sahələrinə, örüş yerlərinə getmələri çətinləşmişdi. Yeni salınan körpü bu çətinliyi aradan qaldırıb. Torpaq mülkiyyətçiləri ilə də həmsöhbət oluruq. Elnur Qənbərov deyir ki, adıçəkilən ərazidə ötən ilin payızında 11 hektar sahədə taxıl əkib. Yeni salınan körpü əkin sahəsinə texnika aparılmasına, burada təsərrüfat tədbirlərinin həyata keçirilməsinə imkan verib. Digər torpaq mülkiyyətçisi Əbülfəz Əliyev isə 5,5 hektar sahədə əkin keçirib. Yeni körpünün kənd adamlarının işini xeyli yüngülləşdirdiyindən razılıqlarını bildirən hər iki torpaq mülkiyyətçisi bundan sonra Saltaqda kənd təsərrüfatının daha geniş həcmdə inkişaf etdiriləcəyinə əminliklərini vurğulayır. Bizimlə həmsöhbət olan digər təsərrüfat sahibləri də bu qənaəti təsdiqləyirlər. Deyirlər ki, dövlətimizin belə qayğısı daxili bazarı yerli istehsal məhsulları ilə təmin etməyə imkan verib. Bu imkanlardan Saltağın torpaq mülkiyyətçiləri bundan sonra daha səmərəli istifadə edəcəklər.

Kənd adamları ilə 1-2 saatlıq söhbət muxtar respublikada insan amilinə böyük qayğının ifadəsini bütün çalarları ilə ortaya qoyur. Dəyirmançı Həsən Qənbərovun sözlərini xüsusi vurğulamaq istəyirəm:

– O yerdə ki, insanın çətinliklərilə maraqlanırlar, qeydinə qalırlar, dərdinə əlac edirlər, bu boyda tikinti işi görürlər, köhnə tikintiləri sökülüb dağılmağa qoymurlar, əksinə, təmir edib istifadəyə yararlı hala gətirirlər, deməli, orada yurda bağlılıq var. Elə oraya da ruzi-bərəkət özü yol tapır...

– Ruzi-bərəkətiniz bol olsun, daimi olsun, – deyərək müasirliyə qovuşmuş Saltaqdan qəlbimizdə barmaqla sayıla biləcək kəndlərimizi də lap yaxın vaxtlarda bu yaşayış məntəqəsi kimi görmək inamı ilə ayrılırıq.

✍ **Muxtar MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin mart ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli Qərarı ilə "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə" təsdiq edilmişdir. Əsasnaməyə əsasən, Naxçıvan Muxtar Respublikasında əhaliyə tibbi-sosial ekspertiza xidməti göstərən tibbi-sosial ekspert komissiyaları Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin tabeliyində yaradılmaqla, tibbi-sosial ekspertizə keçirərək əlilliyi və 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğunu qiymətləndirir, eyni zamanda əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud olan uşaqların sosial müdafiə tədbirlərinə ehtiyaclarını müəyyən edir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli məqsədi ilə yaradılmış komissiyaların siyahısının və tərkibinin təsdiq olunması haqqında" 2009-cu il 25 dekabr tarixli 90 nömrəli Qərarı ləğv edilmiş, 2016-cı il 17 mart tarixli Qərarla "Naxçıvan Muxtar Respublikasında bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası" təsdiq edilmişdir.

Qəbul edilən normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində ***(www.huquqiaktlar.nakhchivan.az)*** tanış olmaq mümkündür.

## Dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin test mərhələsinə aprelin 1-də start veriləcək

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün bu ilin fevral ayının 20-də elan edilən müsabiqə üzrə test imtahanları 1-15 aprel tarixlərində keçiriləcək.

Komissiyadan verilən məlumata görə, sənəd qəbulu martın 19-da başa çatıb. 36 dövlət orqanı üzrə müsabiqəyə çıxarılan 294 vakant vəzifədən 140-nın tutulması üçün 633 namizəd sənəd təqdim edib. Bu da adıçəkilən komissiya tərəfindən keçirilən müsabiqələrin tarixində ən yüksək göstəricidir.

Vakant vəzifələrlə bağlı ən yüksək müsabiqə vəziyyəti Səhiyyə Nazirliyi üzrə qeydə alınıb. Belə ki, bu qurumda vakant olan 1 yerdə işləmək üçün 42 namizəd müraciət edib. Bundan başqa, muxtar respublika Gənclər və İdman Nazirliyi üzrə 6 vakant yerin tutulması üçün namizədlər tərəfindən 105 müraciət olub. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində vakant olan 1 yer üzrə isə 29 müraciət qeydə alınıb. Test imtahanlarının qrafiki Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet səhifəsində ***(www.dqmk.nmr.az)*** yerləşdirilib.

## İbtidai sinif müəllimləri, məktəb psixoloqları və distant tədris üzrə pedaqoji kadrlar üçün seminar



***Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı ibtidai sinif müəllimləri, məktəb psixoloqları və distant tədris üzrə pedaqoji kadrlar üçün seminar keçirilib.***

Seminarda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribovun, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidovanın, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənlinin çıxışları dinlənilib. Çıxışlarda qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.

Bildirilib ki, məktəbin tədris və tərbiyə müəssisəsi olduğunu və vətəndaş yetişdirdiyini nəzərə alsaq, psixoloqların təhsil prosesində nə qədər əhəmiyyətli rol oynadığını və onların üzərinə çox çətin, məsuliyyətli iş düşdüyünü demək olar. Məktəb psixoloqları psixoprofilaktik və psixodiaqnostik iş prosesində təhsildə çətinliklərlə qarşılaşan, inkişafı və davranışında çatışmazlığı olan uşaqların üzə çıxarılması məqsədilə şagirdlərin intellektual və şəxsi emosional inkişafının fərdi-psixoloji xüsusiyyətlərini öyrənməli, siniflərdə və qruplarda sosial-psixoloji mühiti tədqiq etməlidirlər. Onlar şagirdlərin yaş və inkişaf səviyyələrini müəyyənləşdirərək uşaqları ibtidai təhsil pilləsindən ümumi orta, tam orta təhsil pillələrinə və peşə məktəblərinə keçərkən psixoloji müayinə etməli, müəllim və valideynlərlə birlikdə uşaqlara fərdi iş proqramını işləyib hazırlamalıdırlar. Psixodiaqnostik iş zamanı psixoloqlar psixi cəhətdən inkişaf edən uşaqları, effektiv-emosional pozuntulara və pis davranışa meyilli olan uşaqları, habelə ümumi və xüsusi istedadlı uşaqları üzə çıxarmalıdırlar. Dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin icrasının bundan sonra da davam etdirilməsi muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbinin sistemli xarakter almasına və distant tədrisin genişləndirilməsinə şərait yaradacaq.

Vurğulanıb ki, aidiyyəti qurumlar tərəfindən həyata keçirilən tədbirlər nəticəsində hazırda muxtar respublikada sağlamlıq imkanları məhdud 825 uşaq ümumtəhsil məktəblərində təhsil alır. Təhsilə cəlb olunmuş müvafiq kateqoriyalı uşaqların məktəblərdə təhsilə marağını artırmaq, onları bu mühitə alışdırmaq ibtidai sinif müəllimlərinin, məktəb psixoloqlarının bacarıq və iş prinsipindən çox asılıdır.

Sonra Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin psixoloqu Gülşən Allahyarova, Heydər Əliyev adına tam orta məktəbin ibtidai sinif müəllimi Fəridə Məmmədova çıxış ediblər.

Xatırladaq ki, bu qəbildən seminarların bütün rayon mərkəzlərində keçirilməsi nəzərdə tutulub.

✍ **Səbuhi HÜSEYNOV**

*Multikulturalizm ili*

## Naxçıvanda yaşamaq həm rahat, həm də xoşdur

### Burada ailə dəyərlərinin qorunması və insanların bir-birinə mehriban münasibəti çox yüksək səviyyədədir

***Naxçıvan Azərbaycanın qədim tarixə və zəngin mədəniyyətə malik ayrılmaz hissəsi olmaqla yanaşı, həm də milli dəyərlərimizin həssas qorunduğu regiondur. Bu qədim Azərbaycan torpağı milli kökə bağlılığı, mental dəyərlərə münasibəti ilə seçilib. Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan tarix boyu Şərq və Qərb arasında müxtəlif sivilizasiyaların, mədəniyyətlərin qovuşduğu region kimi tanınsa da, özünün multikultural ənənələrinə görə də diqqət çəkib.***

Orta əsrlər çağında bura yolu düşən səyyahlar Naxçıvanın təbiətindən, iqlimindən, bərəkətli torpaqlarından söhbət açdıqları kimi, insanlarından, onların xarakterindən də bəhs ediblər. Burada yaşayanların qonaqpərvər, üzügülər, mehriban olduğunu yazıblar. Bu kimi amillər Naxçıvanda tolerant dəyərlərin inkişafında köklü ənənələrin dayandığını göstərir. Məhz bu baxımdan tolerantlıq həm də bizim milli dəyərlərimizin əsasını təşkil edir. İllər keçdikcə, dünya inkişaf etdikcə bu dəyərlər də qorunur, qorunduqca inkişaf edir. Elə bu səbəbdəndir ki, ömrünü Naxçıvanla bağlayan, burada daimi yaşamağa qərar vermiş başqa millətlərin nümayəndələri də az deyil. Vaxtilə Rusiyadan, Ukraynadan, Şimali Qafqazdan və digər regionlardan gələrək Naxçıvanda yaşayan bu insanların burada məskunlaşmasının səbəbi, sadəcə, ailə həyatı qurduqları şəxslərin azərbaycanlı olması deyil, eyni zamanda onlara göstərilən yüksək münasibətdir desək, yəqin ki, yanılmarıq. Şahbuz rayonunda görüşüb söhbət etdiyimiz insanlar da bunu xüsusi vurğuladılar.

Tatyana Georgiyevna 1953-cü ildə Rusiya Federasiyasının Sverdlovsk şəhərində anadan olub. Həyat yoldaşı İsfəndiyar Quliyevlə orada tanış olub. Onun dediklərindən: “1970-ci ildə mən Sverdlovskda Politexnik Texnikumunda oxuyurdum. İsfəndiyar isə Sverdlovska işləməyə gəlmişdi və orada inşaatda çalışırdı. İlk tanışlığımız mən texnikumda oxuyarkən oldu və 1973-cü ildə evləndik. Azərbaycana gələrkən Rusiyadan kənarda heç yerdə olmamışdım. Doğrusunu desəm, valideynlərim də kənar bir yerə getməyimizə razı deyildilər. Ancaq sonda onların da razılığını aldıq və Azərbaycana gəldik. İlk gəldiyim zamanlar bir az çətinliyim oldu, o da, əsasən, dillə bağlı idi. Qısa müddətdə dili öyrəndim, amma danışmağa utanırdım. Sonra isə zamanla bu da aradan qalxdı. Buradakı bütün qohumlarımız mənə qarşı çox həssas və mehriban idilər və bu münasibət indi də davam edir. Zaman keçdikcə Azərbaycan məişəti məni daha çox özünə çəkməyə başladı. İslam dinini də qəbul etdim və bu dinin insanların həyatında necə əhəmiyyətli rol oynadığının fərqinə vardım. Azərbaycanın nə qədər zəngin mədəniyyətə, dəyərlərə malik olduğunu gördüm. Sonra övladlarımız oldu, iki qız və bir oğlan böyütdük, onları evləndirdik. Mən özüm uzun illər rayonda hərbi xidmətə çağırış məntəqəsində çalışdım. İşlədiyim dövrdə hər kəsin mehribançılığını, qayğısını gördüm. İndi isə pensiyaçıyam, gördüyünüz kimi nəvələrimlə günümü keçirirəm (gülür)”.

– Naxçıvana gəldikdən sonra sizi bura bağlayan ən çox nə oldu? – sualıma isə belə cavab alıram: “Əlbəttə ki, hər kəsin mənə mehriban münasibəti”.

Şahbuz şəhərində yaşayan digər həmsöhbətimiz isə milliyyətcə ukraynalı olan Yekaterina Yakovlevadır. 65 yaşı var. Ukraynanın Vinnitsa şəhərində anadan olub və həmin şəhərdə kənd təsərrüfatı institutunda təhsil alıb. O da Tatyana Georgiyevna kimi yerli vətəndaşlarımızdan biri ilə evlənərək Şahbuz rayonuna gəlib. 30 ilə yaxın müddətdə dövlət qulluğunda çalışıb. Həyatından razı görünür. Bunu özündən soruşduqda belə cavab verir: “Hər kəsin öz qisməti var. Demək ki, mənim də qismətimdə Naxçıvanda yaşamaq varmış. Amma bundan çox razıyam. Çünki burada ailə dəyərləri, insanların bir-birinə qarşı münasibəti çox yüksəkdir. Gəldikdən sonra bir neçə dəfə Ukraynaya getmişəm, qohumları, yaxınları ziyarət etmişəm. Onlar da bura məni görməyə gəliblər. Hazırda da telefonla əlaqə saxlayırıq. Ancaq Şahbuz mənim üçün indi daha da doğmalaşıb. Burada 2 oğul, 1 qız böyütmüşəm. Həyatımın ötən günlərinə nəzər saldığda görürəm ki, indiyədək hər yerdə – işdə, evdə və yaxud harasa gedəndə hər kəsdən hörmət, xoş münasibət görmüşəm. Buna görə də özümü xoşbəxt sayıram”.

Şahbuz şəhərindəki Ahıllar evində yaşayan yəhudi əsilli Violetta Çernışeva da naxçıvanlıların ona xoş münasibətindən ağızdolusu danışdı. Dedi ki, Bakıda anadan olsa da, ali təhsilini Rusiya Federasiyasının Pyatiqorsk şəhərində alıb. Həyat yoldaşı yəhudi olub. Sonra isə ondan ayrılıb. Tale onu Ahıllar evinə gətirib çıxarsa da, həyatın ona bəxş etdiyi sürprizlərə küsməyib. Müsahibimiz Naxçıvanda yaşamağın onun üçün çox rahat olduğunu bildirdi. Qeyd etdi ki, Naxçıvan çox təmiz və sakit bir regiondur. Buradakı insanların çoxu bir-birini tanıyır və hər kəs bir-birinə qarşı mehriban və qayğıkeşdir. Bəzən şəhərdə bir yerə gedərkən danışığıma görə buralı olmadığımı düşünüb mənə qarşı daha mehriban davranırlar. Yaşadığımız Şahbuz rayonundan, həm də Naxçıvandan çox razıyam.

Rayonun Daylaqlı kəndində yaşayan Tamara Berzeqova isə kənd sakini, Çernobıl əlili Füzuli Hüseynovun həyat yoldaşıdır. Milliyyətcə adıgeydir. 1961-ci ildə Rusiya Federasiyasının Krasnodar vilayətinin Maykop şəhərində anadan olub. Həyat yoldaşı ilə bir tekstil fabrikində işləyərkən tanış olub və bu tanışlıq sonradan evliliyə gətirib çıxarıb. Artıq 33 ildir ki, Şahbuz rayonunda yaşayır.

Tamara Berzeqova: “Anadan olduğum və böyüdüyüm şəhər buradan çox da uzaqda deyil, Şimali Qafqaz ərazisindədir. Adıgeylər türk kökənli xalqdır. Ancaq doğulduğumuz yerdə rus dili daha çox hakimdir. Bir Azərbaycan vətəndaşı ilə ailə qurmaq, Naxçıvanda yaşamaq mənim üçün çox xoşdur. Naxçıvanlılar çox istiqanlı, mehriban, bir-birinə qarşı nəvazişli insanlardır. Neçə illərdir, Daylaqlı kəndində yaşayıq, hər kəsin mənə qarşı hörmətini görmüşəm. Burada qohumlar, qonşular bir-birinə çox mehribandırlar. Birinin bir çətinliyi olduqda hər kəs ona yardım əlini uzatmağa çalışır. Bundan əlavə, qohumlar arasında əlaqələr yaxşı qorunur. Xeyirdə, şərdə hamı ev yiyəsinə yaxından kömək edir. Bayramlarda bütün qohum-tanışlar bir-birini görməyə, hal-əhval tutmağa gedir. Naxçıvanda dövlətimiz tərəfindən hər kəsə qayğı göstərilir. Həyat yoldaşım Çernobıl qəzasının iştirakçısı olduğuna görə bir neçə ay bundan əvvəl ona minik avtomobili verildi. Bu yaxınlarda isə kəndimizdə yeni sosial obyektlərin açılışı oldu. Bütün bunlara görə dövlətimizə ailəmiz adından minnətdarıq”.

Bəli, yazının əvvəlində də qeyd etdiyimiz kimi, bu gün muxtar respublikamızın bütün bölgələrində, eləcə də paytaxt Naxçıvan şəhərində xeyli sayda ailələr var ki, ailə üzvlərindən birini digər millətlərin nümayəndələri təşkil edir. Biz isə bir rayonun timsalında, həm də məhdud sayda ailəni seçməklə Naxçıvanda yaşamağın onlar üçün necə bir hiss olduğunu öyrənməyə çalışdıq. Gəldiyimiz nəticə isə elə onlarla etdiyimiz söhbətin nəticəsi ilə eyni oldu: Naxçıvanda yaşamaq həm rahat, həm də xoşdur.

**Səbuhi HƏSƏNOV**



## Abidələr usta memarların daşlarla yaratdıqları tarix nəğmələridir

***Babam zəhmətkeş bir insan idi. Çörəyini daşdan, torpaqdan çıxarardı. Savadı, yazı-pozusu dərin olmasa da, geniş dünyagörüşü var idi. O, İkinci Dünya müharibəsinin odundan-alovundan keçdiyindən polad kimi bərkimiş, mətinləşmişdi. Necə deyərlər, həyatda kirpiyi ilə od götürmüşdü. Ona görə də həyatın gediş-gəlişini yaxşı bilirdi. Bəlkə buna görə idi ki, qohum, dost-tanış çətinə düşəndə babamdan məsləhət alardılar.***

Yaxşı yadımdadır... İndiki Naxçıvan Dövlət Universitetində təhsil alırdım. Bir gün müəllimimiz bizə “Həyatda daimi yaşayan nədir?” mövzusunda yaradıcı yazı hazırlamağı tapşırmışdı. Bu mövzu tələbə yoldaşlarıma və mənə ilk baxışda nə qədər çətin görünsə də, dostlarım kimi həyəcan və təlaş içində deyildim. Çünki bilirdim ki, babam bu mövzunun yazılmasında mənə köməklik edəcəkdir.

Odur ki, dərsdən evə qayıdanda babamdan soruşdum:

– Baba, həyatda daimi yaşayan nədir?

– Vətən nəğməsidir, – dedi. Mənim təəccübləndiyimi görüb fikirlərini bir qədər açıq şəkildə söylədi:

– Oğul, tarix milyon-milyon insanın taleyini unutdurub. Ancaq ulularımızdan bizə miras qalan, yaşayan təkcə Vətən nəğməsidir.

Babam bu sözləri deyib, qədim diyarımızın köksündə yaşayan Möminə xatın, Qarabağlar, Yusif Küseyiroğlu türbələrini, Came məscidini, Zorxana (Qeysəriyyə), Xanəgah, Gülüstan abidələrini və bu kimi bir neçə sənət əsərlərinin adlarını sadaladı. Sonra gülümsəyərək dedi:

– Bax bunlar usta memarların daşlarla yaratdıqları tarix nəğmələridir. Onlar nə qədər yaşayırsa, demək dilimiz, xalqımız, mədəniyyətimiz, tariximiz də yaşayır. Həmin türbələrə, abidələrə vurulmuş sirli naxışlar ulularımızın bizə yazdığı məktublardır. Bu məktubların hər biri əsrlərin ağrılı-acılı, şirin xatirələrini yada salan bir nəğmədir. Bu nəğmələrdə Vətən bizə əmanət olunur. Vətən təkcə silahla qorunmur. O həm də qoynunda məskunlaşan insanlardan sevgi və qayğı istəyir. İstəyir ki, onun sinəsi gülüstana çevrilsin.

Babam bunları elə ürəkdən söyləyirdi ki, sanki yaxın gələcəkdə Vətənimizin azad olacağını, müstəqillik əldə edəcəyini bilirdi.

Babamın mənə söylədiyi bu sözlərdən sonra müəllimimin tapşırığını yerinə yetirdim, bu zərif və əzəmətli sənət incilərini dəfələrlə ziyarət etdim. Bəzən saatlarla onların önündə xəyala dalıb memarların barmaqlarının sehri ilə büllur kaşılara həkk olunan gözəllik nəğmələrini bir-bir oxumağa çalışdım. Anladım ki, sehrində itib-batdığım bu abidələr təkcə ötən əsrlərin nağılı, dastanı deyil, həm də əsrlərin yağışına, tufanına, soyuğuna, istisinə mərdliklə sinə gərən tariximizin yadigarlarıdır.

Heç də təsadüfi deyil ki, Naxçıvanda olmuş Övliya Çələbi, Şarden, Manperi, Maryer, Robert Ker Perter kimi Şərq və Avropa tarixçiləri, coğrafiyaşünaslar, səyyahlar bu qədim diyarda tikilmiş abidələr, mədəniyyət ocaqları haqqında qiymətli fikirlər söyləmişlər. Məşhur sənətşünas M.V.Alpanov yazırdı ki, Şərqin ölməz klassiklərinin əsərlərində duyduğumuz bəşəri təravəti biz Naxçıvan abidələrində görürük. Görkəmli türkoloq Murad Acı isə tarixi və mədəniyyət abidələri ilə zəngin olan Naxçıvan diyarını “İkinci Altay” adlandırmışdır.

Ancaq həqiqəti söyləyim ki, memarlarımızın yaratdığı bu sənət nümunələri o zaman məni bir tərəfdən sevindirirdisə, digər tərəfdən də kədərləndirir, məyus edirdi. Qorxurdum ki, o zaman abidələrimizə qarşı olan laqeydlik nəticəsində əsrlərin şahidi olan bu incilərin ömrü nə vaxtsa sona çata bilər. Babalarımızın bizə əmanət etdiyi bu gözəllik nəğmələrindən əsər-əlamət qalmaz.

Sən demə, xalqımızın xoş günləri qabaqda imiş... Əfsuslar olsun ki, babam bu günləri görmədi. Diyarımızın nə vaxtsa gözəlləşəcəyi günləri görmək kimi arzu və istəklərini bir xəyal olaraq özü ilə apardı. Xalqımız müstəqillik əldə etdikdən sonra bütün milli-mənəvi sərvətlərimizə nəinki sahib çıxdıq, həm də tariximizə işıq tutan bu qiymətli sənət nümunələrinin qayğısına qaldıq.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“Naxçıvan ərazisində həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var. Baxmayaraq ki, onlara yüz illərlə heç qayğı göstərilməyibdir. Hətta müxtəlif proseslər zamanı, bəzən müharibələrlə, yaxud da ki, başqa hadisələrlə əlaqədar onların uçurdulması, dağıdılması halları olubdur. Amma bu tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır”.***

Bəli, hər bir xalqın tarixi keçmişinin öyrənilməsində abidələr xüsusi əhəmiyyət daşıyır. Bu mənada, babalarımızın əziz yadigarlarını bərpa etmək, keçmişi qorumaq dünənin ən yaxşı sərvətlərini sabaha aparmaq deməkdir. Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında heykəlləşən tikililərində, abidələrində yaşayır. Tarixini, vətənini sevən insanlar isə abidələri qoruyub gələcək nəsillərə ötürməlidir.

Bu gün qürur və iftixar hissi ilə deyə bilərik ki, Naxçıvan abidələri ikinci ömrünü yaşamağa başlamışdır. Möminə xatın məqbərəsi restavrasiya edilmiş, Əshabi-Kəhf, İmamzadə, Naxçıvanqala, Buzxana abidələri, Yusif Küseyiroğlu türbəsi, Aza körpüsü, Əlincəqala əsaslı şəkildə bərpa olunmuşdur.

Naxçıvan memarlıq məktəbinin müasir dövrümüzdə ən layiqli davamı olan Hüseyn Cavid məqbərəsi, Nuh Peyğəmbərin türbəsi ucaldılmışdır. Bu gün həm də Naxçıvan abidələrinin sistemli şəkildə öyrənilməsi diqqət mərkəzindədir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 1200-dən artıq tarix və mədəniyyət abidəsi pasportlaşdırılaraq onların dövrü və tipoloji mənsubiyyəti müəyyənləşdirilmiş, 60-dan çox tarixi abidə bərpa olunmuş, tarix və mədəniyyət abidələrinin mühafizəsi təmin edilmişdir.

Sevindirici haldır ki, 7 oktyabr 2015-ci il tarixdə Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən, XII əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindən sayılan dünya əhəmiyyətli abidə olan Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri sərəncam imzalamışdır. Bu türbə üzərində elmi bərpa işləri aparılmış, digər tarixi-mədəniyyət abidələrimiz kimi, Gülüstan türbəsi də ikinci ömrünü yaşamağa başlamışdır.

Bəli, bu gün qədim diyarımızın qoynunda neçə-neçə memar əllərinin yaratdıqları sənət inciləri hamımızı ürəkdən sevindirir. Adama elə gəlir ki, bu qiymətli əsərlər Nəqşi-cahan adlı bir diyarı öz çiyinləri üstünə qaldırıb onu bütün dünyaya nümayiş etdirir.

Deyirlər, hər kəs sənəti ilə özünə abidə qoyur. Babalarımızın yaratdığı abidə həm də zəhmət nəğməsi idi. Çünki müdrik babalarımız öz ömür nəğmələrini hər zaman torpağın qulağına oxuyardı. Torpaqdan qalxan kəhrəba sünbüllərin ətri Vətənin havasına qarışar, göylərə yüksələrdi. O zaman onlar çox sevinərdi. Çünki göylərə ucalan Vətən nəğmələri idi. İndi bu gözəllik nəğmələri qədim diyarımızın hər guşəsində oxunur.

**Rövşən HÜSEYNOV**

***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, martın 24-dən 27-dək respublikamızın bir sıra regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da "Ölkəmizi tanıyaq" devizi ilə növbəti maarifləndirici tur-aksiya keçirilib. Martın 24-də tur-aksiya çərçivəsində Bakı şəhərinin 12 rayonundan 160 məktəbli 20 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəlib. Dörd gün ərzində qədim Naxçıvanın tarixi abidələri, mədəniyyət, təhsil və istehsal müəssisələri, gəzməli-görməli yerləri ilə tanış olan bakılı məktəblilər martın 27-də Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar. Paytaxta yola düşməmişdən əvvəl onların bir neçəsinin səfər təəssüratlarını öyrəndik.***

## Tur-aksiya iştirakçıları: Naxçıvandan çox böyük təəssüratlarla ayrılırıq



*Bakı şəhərinin Qaradağ rayonundan gələn qrup rəhbəri Şamama Ağamuradova* dedi:

– Məktəblilərimiz dörd gün ərzində ölkəmizin qədim diyarı, dahilər yurdu olan Naxçıvan Muxtar Respublikasının zəngin və çoxəsrlik tarixi, mədəniyyəti haqqında dolğun məlumat əldə etdilər, Naxçıvan şəhərində, Ordubad, Şahbuz, Kəngərli rayonlarında oldular. Buradakı təhsil, istehsal, mədəniyyət müəssisələri ilə yaxından tanışlıq onlarda böyük maraq oyatdı. Muxtar respublikanın füsunkar təbiəti hər birimizi valeh etdi.

Naxçıvan şəhərinin, buradakı tarixi abidələrin və müasir binaların gözəlliyi, insanların qonaqpərvərliyi və istiqanlılığı bizdə xoş duyğular oyatdı.

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya gənclərə dövlət qayğısının təzahürüdür. Tur-aksiya məktəblilərin dünyagörüşünün daha da zənginləşməsi, gənclərin vətənpərvərlik və azərbaycançılıq prinsipləri əsasında, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunması baxımından çox əhəmiyyətlidir.



*Bakı şəhərinin Pirallahı qəsəbəsindəki 231 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Orxan Abbasov* da Naxçıvandan xoş təəssüratlarla ayrıldığını vurğulayaraq dedi:

– N a x ç ı v a n Muxtar Respublikası ilə tanışlıq hər birimizin ürəyincə oldu. Naxçıvandakı tarixi abidələr regionun zəngin mədəniyyətindən və qədim tarixindən xəbər verir. Naxçıvan sanki açıq hava altında olan bir muzeyə bənzəyir. Buranın gözəlliyinə, təbiətinə heyran qaldım. Naxçıvan şəhəri çox gözəldir. Binalar göz oxşayır. Hər tərəfdə səliqə-sahman gördüm.

Biz "Naxçıvan" Universitetində və Naxçıvan Dövlət Universitetində də olduq. Burada yaxşı təhsil almaq üçün hər cür şərait var. Mən çox istərdim ki, məktəbi qurtarandan sonra bu iki universitetdən birinin tələbəsi adını qazana bilim. Ali təhsil ocaqları ilə tanış olandan sonra məndə bu arzular yarandı.

Naxçıvan səfərimi mənim və dostlarımın Vətənə olan sevgisini daha da artırdı. Aksiya zamanı biz həm də yaşıdlarımızla fikir mübadiləsi aparmaq imkanı qazandıq. Bizə bu şəraiti Prezidentimiz cənab İlham Əliyev yaradıb. Bu diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarıq. Çünki bu səfər bizim həyatımızda unudulmaz xatirəyə çevriləcəkdir.



*Bakı şəhərinin Binəqədi rayonunda yerləşən 126 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Həvva Mansurova* da bu cür tədbirlərin əhəmiyyətindən danışdı, Naxçıvanı yaxından tanıdıqdan sonra qədim diyarı daha çox sevdiyini bildirdi:

– Naxçıvanın tarixi, gəzməli-görməli yerləri, abidələri haqda kitablardan oxumuşdum. Ancaq düzünü deyim ki, ərazi baxımından Azərbaycandan ayrı düşən bu diyar haqda tam təsəvvürüm yox idi. Təşkil edilən ekskursiyalar qədim Naxçıvanı yaxından tanımağımıza şərait yaratdı.

Naxçıvanqala, Xan sarayı, Möminə xatın türbəsi, o cümlədən Naxçıvan Muxtar Respublikasının istehsal, təhsil müəssisələri ilə tanışlıq yurdumuzu daha yaxından tanımağımız üçün gözəl fürsət oldu. Naxçıvandan çox böyük təəssüratlarla ayrılırıq.

**Rauf ƏLİYEV**

## *"Xəmsə"* intellektual oyununun final mərhələsi keçirilib



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə "Xəmsə" milli intellektual oyununun gənclər arasında VIII Azərbaycan çempionatının zona seçim turunun oyunları keçirilib.

Gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında biliyin və elmin nüfuzunu artırmaq, Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətini və tarixini təbliğ etmək, eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən yarışda 12 komanda 3 qrupda qüvvəsini sınayıb. Oyunun final mərhələsinə isə Naxçıvan Dövlət Universitetinin "Savalan", "Əlincə", "Şahdağ" və "Səadət" komandaları vəsiqə qazanıb.

Gərgin keçən bilik yarışında "Xəmsə" intellektual oyununun zona seçim turunun qalibi adını "Əlincə" komandası qazanıb. Digər iki pillədə isə "Savalan" və "Şahdağ" komandaları qərarlaşıblar.

Sonda qalib komandalar diplomlarla mükafatlandırılıblar.

Qeyd edək ki, final mərhələsində muxtar respublikanı qalib olan 3 komanda təmsil edəcək. Final mərhələsi aprel ayının əvvəllərində Bakı şəhərində təşkil olunacaq.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda *"Axırıncı yol"* macəra komediyasının qala gecəsi olub



***Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Bozbash Pictures" komandasının ərsəyə gətirdiyi yeni "Axırıncı yol" macəra komediyasının qala gecəsi olub.***

Tədbirdə yaradıcı heyət adından çıxış edən aktyor İlkin Həsəni bütün tamaşaçıları salamlayıb və Naxçıvanda olmaqlarından məmnunluğunu bildirib.

İlkin Həsəni qeyd edib ki, "Axırıncı yol" filmi martın 1-dən etibarən Bakı şəhərindəki kinoteatrlarda 80 mindən artıq tamaşaçı tərəfindən izlənilib. "Bozbash Pictures" komandası ikinci dəfədir, Naxçıvana gəlir və burada onlara göstərilən isti münasibətin və qonaqpərvərliyin bir daha şahidi olurlar. O, "Axırıncı yol" filminin qalasının Naxçıvanda keçirilməsinə şərait yaradıldığına görə yaradıcı heyət adından minnətdarlığını bildirib.

Sonra filmə baxış olub. Film izləyicilər tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, "Axırıncı yol" macəra komediyası "Bozbash Pictures" qəhrəmanları, Şəmi, Şöşü, Fəlakət, Şirin, Qılman və Ağsaqqalın başına gələn maraqlı əhvalatdan bəhs edir. Belə ki, çıxılmaz bir vəziyyətə düşən qəhrəmanlar yerli bankların birindən içində iki milyon dollar olan inkassator avtomobilini qaçırırlar. Filmdə əsas rollarda aktyorlar İlkin Həsəni, Ramil Babayev, Elşən Orucov, Nicat Rəhimov və İlkin Misgərli çıxış edirlər. Filmin rejissoru Emil Abdullayevdir.

**Xəbərlər şöbəsi**

***Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə təşkilatçılığı ilə bu ilin aprel-noyabr aylarında "Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016" keçirilir.***

## Müsabiqənin seçim turu davam edir



Martın 10-da start verilən müsabiqənin ilk seçim turuna 100-dən çox iştirakçı qatılmış, bu turda 51 nəfər fərqlənərək müsabiqənin ikinci mərhələsində iştirak etmək hüququ qazanmışdı.

Dünən Naxçıvan Dövlət Filarmoniyasının zalında ikinci seçim mərhələsi olmuşdur. İkinci seçimin ilk günündə Naxçıvan şəhəri üzrə 8, Babək rayonu üzrə 7, günün ikinci yarısında isə Culfa rayonundan 15 nəfər iştirak etmişdir. Seçim başlanmazdan əvvəl təşkilat komitəsinin üzvü, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev çıxış edərək müsabiqənin məqsəd və şərtləri haqqında bir daha məlumat vermiş və ilk seçimin nəticələrini elan etmişdir. Bildirilmişdir ki, ikinci seçimdən sonra növbəti mərhələdə 12 iştirakçının öz istedadını göstərməsi nəzərdə tutulur. O, müsabiqə iştirakçılarına bir daha uğurlar arzulamışdır.

Bu gün isə münsiflər heyəti ikinci seçim turunda Şahbuz rayonundan 8, Sədərək rayonundan 2, Ordubad rayonundan 4, Şərur rayonundan 3, Kəngərli rayonundan 4 nəfər iştirakçının ifalarını 10 ballıq sistem üzrə qiymətləndirəcəkdir.

**Əli RZAYEV**

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına

### *2016/2017-ci tədris ili üçün əyani təhsil üzrə tələbə qəbulu qaydaları*

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2016/2017-ci tədris ili üçün əyani təhsil üzrə qəbula namizədlər boyu 170 santimetrdən az olmayan, tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan, 15.09.2016-cı ilədək 17 yaşı tamam olan, yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15.09.2016-cı ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Akademiyaya qəbul olmaq arzusunda olanlar Fövqəladə Hallar Nazirliyinin xüsusi həkim ekspertiza komissiyasından və Fövqəladə Hallar Nazirliyi tərəfindən qəbul edilmiş qaydalara müvafiq olaraq fiziki hazırlıq və seçmə komissiyalarında sınaqdan keçməlidirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı test imtahanlarında iştirak etmək üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

Qəbul imtahanı test üsulu ilə I ixtisas qrupuna daxil olan fənlər üzrə keçirilir.

Test imtahanlarının keçirilməsi qaydaları ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və kütləvi informasiya vasitələrində verilən elanlarda tanış olmaq olar.

Akademiyaya qəbul olan şəxslər təhsil müddətində yemək, geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar.

Akademiyada təhsil müddəti 4 ildir və tədris Azərbaycan dilində aparılır.

Akademiyanın məzunlarına müvafiq olaraq Yanğın təhlükəsizliyi mühəndisliyi, Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə bakalavr dərəcəsi verilir. Onlar zabit və ya orta rəis heyəti rütbələri verilməklə Fövqəladə Hallar Nazirliyi sistemində vəzifələrə təyinat alırlar.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*-tərcümeyi-hal (şəxsən yazılmış);*

*-şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;*

*-hərbi biletin və ya hərbi xidmətə çağırış məntəqəsinə təhkimedilmə vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti;*

*-tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;*

*-tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış;*

*-yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda);*

*-xüsusi həkim ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə ruhi-əsəb, narkoloji, dəri-zöhrəvi, vərəm dispanserlərindən və QİÇS haqqında arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında qısa epikriz;*

*-4 ədəd 6x4 sm ölçüdə rəngli fotoşəkil (ağ fonda, tünd rəngli pencəkdə).*

Sənədlər aprelin 1-dən 30-dək (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində (Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, 25) qəbul ediləcəkdir.

***Əlaqə telefonu: 545-41-66***

## Hakimlər üçün seminar



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində hakimlər üçün seminar təşkil edilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Karate-do Federasiyasının təşkil etdiyi seminarda muxtar respublikanın şəhər və rayonlarında karate-do idman növü üzrə məşqçilər və hakimlər iştirak ediblər.

Seminarda Azərbaycan Respublikasının Əməkdar məşqçisi Hidayət Şabanov hakimlərə qaydalar haqda məlumat verib, praktiki olaraq yeni tətbiq olunan qaydaları göstərib.

Seminardan sonra federasiyanın sədr müavini Nəriman Quliyev dedi ki, federasiyamız belə seminarları mütəmadi olaraq təşkil edir. Məqsəd bu idman növünü muxtar respublikada inkişaf etdirmək, məşqçilərin və hakimlərin beynəlxalq yarış təcrübəsini artırmaqdır. Çalışırıq ki, bu qəbildən seminarlar daha çox praktiki yöndə olsun. Belə tədbirlərin böyük fayda verəcəyinə əminik. Əsl nəticəni isə qarşıdakı yarışlar göstərəcək.

Qeyd edək ki, federasiya nazirliklə birgə Şərur Olimpiya-İdman Kompleksində də belə seminar təşkil edib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 239